

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

4 sentyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 34 (3746)


# Ölkəmizin nüfuzu artır

**Çində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının növbəti sammiti başa çatdı. Bu sammit təşkilatın indiyə qədərki ən böyük tədbiri idi. Qeyd edək ki, dünyanın ən böyük regional qurumu kimi ŞƏT-ə üzv ölkələr Avrasiya ərazisinin təxminən 60 faizini, dünya əhalisinin 40 faizini, qlobal ümumi daxili məhsulun 25 faizini təmin edir. Sammitdə 20-dən çox ölkənin, o cümlədən təşkilatın 10 üzvü, 2 müşahidəçisi, 14 dialoq ortağı olan ölkələrin rəhbərləri iştirak etdi.**




## Münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsindədir

Prezident İlham Əliyevin ÇXR Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-da bu ölkəyə etdiyi işgüzar səfər bir daha göstərdi ki, Azərbaycan-Çin münasibətləri hər iki dövlətin maraqlarını ehtiva edərək, dinamik inkişaf yolundadır. Ümumiyyətlə, Prezident İlham Əliyevin qarşılanmasından başlayaraq səfərin bütün detalları Çin dövlətinin və onun sədrinin Prezident İlham Əliyevə və Azərbaycana olan yüksək ehtiramının nümunəsinə çevrildi. Olduqca səmimi atmosferdə aparılan danışıqlar, Si Cinpinin İlham Əliyevə "mənim əziz dostum", - deyə müraciət etməsi çox mətləblərdən xəbər verdi. Əlbəttə, bu gün Azərbaycan-Çin siyasi münasibətlərinin ən yüksək səviyyəyə çatmasında iki dövlətin liderləri arasında olan dostluq münasibətləri xüsusi rol oynayır. Prezident İlham Əliyevin və ÇXR Sədri Si Cinpinin əlamətdar günlər və siyasi hadisələr münasibətilə bir-birinə göndərdikləri məktubların məzmunu həm dövlətlərarası siyasi əlaqələrin, həm də iki dövlətin rəhbəri arasındakı dostluğun nümunəsidir. Bununla yanaşı, son illərdə Azərbaycanla Çin arasında ali və yüksəksəviyyəli səfərlərin sayı da artıb və bu amil Azərbaycan-Çin liderləri münasibətlərinin yüksəlişinə əhəmiyyətli dərəcədə təsirini göstərir. İki dövlət yüksək texnologiyalar, "yaşıl enerji" sahələrində də uğurla əməkdaşlıq edir. Çin şirkətləri Azərbaycanın "yaşıl enerji" layihələrində fəal iştirak edirlər. Texnoloji inkişafda böyük yol qət edən Çin respublikamızın "yaşıl enerji" layihələrinin texniki resurslarla təchizatına böyük dəstək verir.

> *"Münasibətlərin inkişafında iki dövlətin rəhbərlərinin dostluğu xüsusi rol oynayır"*

İki dövlət arasındakı iqtisadi əlaqələrin yüksəlməsində nəqliyyat sahəsində əməkdaşlıq da böyük rol oynayır. Azərbaycanın yaratdığı mükəmməl nəqliyyat infrastrukturu, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində maraqları ilə üst-üstə düşür. Son illərdə əhəmiyyəti daha da yüksələn Orta dəhliz hazırda yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən sürətli və etibarlı marşrutudur. Orta dəhliz vasitəsilə Azərbaycanla Çin arasında tranzit daşımaların həcminin 2023-cü illə müqayisədə 2024-cü ildə 86 faiz artaraq 378 min tona çatması da Orta dəhlizin qlobal rəqabətdəki aparıcı mövqeyini göstərir.

Bütün bu məsələlər Prezident İlham Əliyevlə Sədr Si Cinpin arasında avqustun 31-də Çinin Tiencin şəhərində keçirilən görüşdə bir daha müzakirə olunub. Çin Xalq Respublikasının Sədri ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını, energetika, o cümlədən bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndiyini vurğulayıb. Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd edib, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxunub.

Prezident İlham Əliyevin Çinə səfəri bir daha göstərdi ki, Azərbaycan-Çin münasibətləri dostluq və strateji tərəfdaşlıq prinsiplərinə söykənərək inkişaf edir. Eyni zamanda dövlətimizin başçısının Çinin Tiencin şəhərində bu ölkənin "China Energy Engineering Corporation Limited" ("Energy China"), "Sichian Sunsync Photovoltaic Technology Co", "CCCC" ("China Communications Construction Company") şirkətlərinin və "CETC" ("China Electronics Technology Group Corporation") korporasiyasının rəhbərləri ilə görüşləri bir də təsdiq etdi ki, iki dövlət arasında əməkdaşlıq əlaqələri bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

# Dünyaya ünvanlanmış mesajlar

## Prezident müsahibəsində ölkəmizi bölgənin lideri kimi təqdim etdi

Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının nüfuzlu "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə həm regional, həm də qlobal siyasi gündəmə mühüm hadisə kimi öz möhrünü vurdu. Müsahibədə yer alan fikirlər həm də 44 günlük Vətən müharibəsindən sonra bölgədə yeni reallıqlar yaradan bir dövlətin liderinin beynəlxalq auditoriyaya səslənişi idi. Müsahibədə vurğulanır ki, sülh sazişi təşəbbüsünün Bakının iradəsi ilə gündəmə gətirilməsi Azərbaycanın siyasi yetkinliyini və konstruktiv mövqeyini bir daha nümayiş etdirdi. Prezidentin "biz intiqamı döyüş meydanında aldıq" ifadəsi isə milli qürurla yanaşı, uzaqgörən dövlətçilik müdrikliyinin bariz göstəricisi oldu.

Müsahibədə diqqəti çəkən mühüm məqamlardan biri də Azərbaycanın beynəlxalq arenada artan nüfuzu və diplomatik qətiyyətidir. İlham Əliyev ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə olunmuş sazişi tarixi dönüş nöqtəsi kimi qiymətləndirdi, Minsk Qrupunun fəaliyyətini isə artıq tarixi missiyasını başa vurmuş mexanizm kimi xarakterizə etdi. Azərbaycanın prinsipial mövqeyi sayəsində süni gərginlik yaradan bu strukturun fəaliyyətinə son qoyuldu və bu, ölkəmizin diplomatiyası üçün əlavə qələbə oldu. Yaxın Şərqə dair açıqlamalar isə Azərbaycanın regional siyasətdə genişlənən rolunu təsdiqlədi. Prezidentin çıxışında azad edilmiş ərazilərə qayıdış prosesinə də xüsusi yer ayrıldı. Böyük Qayıdış Proqramı çərçivəsində Qarabağda yeni şəhərlər və kəndlər salınır, infrastruktur bərpa olunur, minlərlə insan doğma yurduna qayıdır. Bu, yalnız torpaqların hərbi yolla azad edilməsi deyil, həm də həmin torpaqlarda müasir həyatın bərpası ilə müşayiət olunan strateji dövlətçilik missiyasıdır.

Zəngəzur dəhlizi məsələsi isə müsahibənin strateji çəkisi ən yüksək olan mövzularından biri oldu. Prezident İlham Əliyevin vurğuladığı kimi, TRIPP layihəsi təkcə Azərbaycanın Naxçıvanla quru yolunu bərpa etmir, həm də Asiyanı Avropa ilə birləşdirən yeni strateji xətt formalaşdırır. Bu dəhliz Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcək, Ermənistanı iqtisadi inteqrasiyaya cəlb etməklə regionun sabitliyinə töhfə verəcək.

Müsahibədə İranla əlaqələrdə qarşılıqlı faydaya əsaslanan praqmatik siyasət, Rusiya ilə münasibətlərdə isə bərabərlik və qarşılıqlı hörmət prinsipləri açıq şəkildə ifadə olundu. Türk Dövlətləri Təşkilatı barədə açıqlamalar isə Azərbaycanın gələcəyə baxışını bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin sözlərinə görə, türk dövlətlərinin birliyi gələcəkdə qlobal güc mərkəzinə çevrilə bilər. Azərbaycanın bu qurumun fəal təşəbbüskarlarından biri olması onun strateji vizionunu təsdiqləyir.

Dövlət başçımızın "Əl-Ərəbiyyə" telekanalına müsahibəsi Azərbaycan diplomatiyasının, regional liderlik missiyasının və uzaqgörən siyasətinin qlobal auditoriyaya təqdimatı oldu.

# Prezidentin təbriki

## Futbol tariximizdə yeni bir səhifə açılıb

Prezident İlham Əliyev "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycanın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanaraq futbol tariximizdə yeni bir səhifə yazdı! "Qarabağ" klubunun bütün komanda heyətini və azarkeşləri təbrik edirəm!".

# Sülh dəstəklənir

## Əməkdaşlıq imkanları müzakirə olunub

Prezident İlham Əliyev avqustun 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.

Maqdalena Qrono Avropa İttifaqının rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırıb, Azərbaycan Prezidentini Avropa İttifaqının rəhbərliyi və öz adından Vaşinqtonda Ermənistanla münasibətlərin normallaşdırılması, sülh gündəliyi ilə bağlı əldə edilmiş mühüm nəticələr münasibətilə təbrik edib. O, bu prosesin regionda davamlı sülhün təmin olunmasına böyük töhfə verdiyini vurğulayıb.

Dövlətimizin başçısı Vaşinqtonda əldə olunan nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini deyərək, bu prosesdə Amerika Birləşmiş Ştatlarının rolunu xüsusi vurğulayıb, ABŞ-ın vasitəçiliyi ilə imzalanmış Vaşinqton bəyannaməsini, sülh sazişinin paraflanmasını və Minsk qrupunun ləğv edilməsi ilə bağlı Azərbaycan və Ermənistanın birgə müraciətini sülh prosesində atılan mühüm addım kimi dəyərləndirib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Tarixi Anlaşma

## Strateji tərəfdaşlığın real mənzərəsi

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb.

Bu Anlaşma Memorandumunun məqsədi İştirakçılar arasında strateji münasibətlərin möhkəmlənməsinə yönəlmiş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay müddətində hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılmasıdır.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev avqustun 29-da Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev avqustun 29-da Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Rüfət oğlu Hüseynzadəyə işində yol verdiyi ciddi nöqsanlara görə şiddətli töhmət elan edilməsi barədə Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev avqustun 29-da işğaldan azad olunmuş ərazilərdə tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.*


Nazir vətəndaşları dinləyib....................2
Mənəvi hazırlıq əsas şərtdir.................2
Etibarlı qoruyur, etimadı doğruldurlar....3
Cinayət səhnələrinin miniatür kraliçası.4

# Respublika Xəbərləri

### Səyyar "ASAN xidmət" regionlarda

Səyyar "ASAN xidmət" sentyabrın 15-dək Xızıda, 18-dək Horadizdə, 26-dək Qazax, Şirvan, Zaqatala, Xaçmaz, Cəlilabad və Ağdaşda, 18-dən 26-dək Xırdalanda, 22-dən 26-dək isə Cəbrayılda vətəndaşlara səyyar xidmət göstərəcək. Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim olunması, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

### Torpaqlar icarəyə veriləcək

İnvestisiya layihəsi Xocavənd, Xocalı və Laçın rayonlarında yerləşən torpaq sahələri üzrə baş tutacaq. İstiqamətləri bağçılıq və heyvandarlıq olan investisiya layihələri üzrə icarə müqaviləsi ilkin olaraq 5 (beş) il müddətinə imzalanacaq. Həmin müddətin sonunda Qaydalara uyğun olaraq həyata keçirilən nəzarət tədbirlərinə əsasən, müsabiqə qalibinin Qaydaların və icarə müqaviləsinin tələblərinə əməl etdiyi (o cümlədən torpaqlardan səmərəli istifadə etdiyi) müəyyən edildikdə, icarə müqaviləsinin müddəti əlavə 44 (qırx dörd) ilədək uzadılacaq.

### Bakı-Ağdam qatarı istifadəyə verilib

Vətəndaşlarımız Ağdama da qatarla gedə biləcəklər. "Azərbaycan Dəmir Yolları" QSC sərnişinlərə İsveçrənin "Stadler" şirkətinin istehsalı olan "FLIRT" markalı müasir qatarlarla xidmət göstərəcək. Hərəkət cədvəlinə əsasən, qatar şənbə günləri Bakıdan saat 07:10-da yola düşəcək, Ağdama 11:53-də çatacaq. Ağdamdan saat 18:20-də çıxan qatar isə saat 22:55-də Bakı Dəmiryol Vağzalında olacaq.

### Xankəndidə işəgötürənlərlə görüş keçirilib

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Dövlət Məşğulluq Agentliyinin Qarabağ Regional Məşğulluq Filialının birgə təşkilatçılığı ilə Xankəndidə işəgötürənlərlə görüş keçirilib. Bildirilib ki, görüş işğaldan azad edilmiş ərazilərdə məşğulluq imkanlarının artırılması, sahibkarlarla əməkdaşlığın gücləndirilməsi məsələlərinin müzakirəsinə həsr edilib. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında sahibkarlıq üçün geniş imkanların mövcud olduğu, sahibkarlara dövlətin hərtərəfli dəstək göstərdiyi vurğulanıb.

### Türkiyənin Zəfər bayramı qeyd olunub

Türkiyənin Azərbaycandakı səfirliyində 30 avqust - Zəfər bayramı münasibətilə tədbir keçirilib. Qəbulda Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri, Azərbaycanın ictimai-siyasi xadimləri, media nümayəndələri iştirak edib. Tədbirin açılışında hər iki ölkənin dövlət himnləri səsləndirilib. Daha sonra Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın tədbirə göndərdiyi mesajı oxuyub.

### Müasir qatarlar gətirilib

AZCON Holding şirkətlərindən olan "Bakı Metropoliteni" QSC sərnişin məmnuniyyəti və xidmət keyfiyyətini artırmaq məqsədilə qatar parkını genişləndirərək daha dörd müasir qatar tərkibi (20 vaqon) Bakıya gətirib. Bunu jurnalistlərə açıqlamasında "Bakı Metropoliteni" QSC-nin sədrinin müşaviri Emil Əhmədov deyib. O bildirib ki, dördüncü nəslə mənsub bu qatarların 2025-ci ildə istismar müddəti başa çatmaq üzrə olan vaqonların əvəzinə xəttə buraxılması nəzərdə tutulub. E.Əhmədov qeyd edib ki, əldə olunmuş razılığa əsasən, bu ilin sonunadək daha 10 vaqon (2 qatar tərkibi) Bakı metrosuna təhvil veriləcək.

### Döyüş sursatları ləğv ediləcək

Pirəkəşkül və Ağdərədə 1-5 sentyabr tarixlərində müddəti başa çatmış və istifadəyə yararsız döyüş sursatları məhv ediləcək. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda və həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

# Nazir vətəndaşları dinləyib

## Problemlərin həlli üçün tapşırıqlar verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 28-də və 29-da Xaçmaz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Xaçmaz rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib. Sonra rayon polis şöbəsinin inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı və digər rayonlardan gələn 409 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.









Nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb. Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 27 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 335 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Polis"*

# Müraciətlər diqqətdə saxlanılır

## Ötən ay DİN-in sosial şəbəkələrdəki səhifələrinə 3556 müraciət daxil olub

İctimai münasibətlərin qarşılıqlı etimad və inam üzərində qurulmasında daxili işlər orqanlarının fəaliyyəti diqqət mərkəzindədir. Bu fəaliyyət cəmiyyətdə həm də ona görə təqdir olunur ki, o cinayətkarlıqla mübarizə aparmaqla, asayişi, sabitliyi qorumaqla bitmir, dövrün aktual çağırışlarından biri olan vətəndaş müraciətlərinə sərgilənən həssaslıqla seçilir. Daha dəqiqi, polisin bu fəaliyyəti hüquqları qorunan, üzləşdiyi problemi yerindəcə həllini tapan, müraciətləri dinlənilən vətəndaşı dövlətin sarsılmaz dayaqlarından birinə çevirir.

Güclü, qüdrətli Azərbaycanı qurmaq və qorumaq üçün öz vəzifə borcunu vicdanla və layəqətlə yerinə yetirən şəxs bilməlidir ki, onun işi təkcə sosial xidmətin göstəricisi deyil, həm də vətəndaş olaraq bu onun dövlət və xalq qarşısında üzərinə götürdüyü öhdəlikdir.

Çünki möhtərəm dövlət başçımızın bütün çıxışlarında bu fikir dönədönə vurğulanır: "Bizim dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Vətəndaşların müraciətlərinə operativ və həssas münasibət onların dövlətə inamını artırır, ictimai etimadı möhkəmləndirir. Bu isə idarəetmədə şəffaflığın və ədalətin təcəssümü kimi çıxış edir".

Müraciətlərin qeydə alınması, diqqətlə araşdırılması dövlət orqanlarının fəaliyyətindəki çatışmazlıqların üzə çıxmasına, onun aradan qaldırılmasına və problemlərin həllinə töhfə verir. Yəni səsi eşidilən, təklifi, iradı qəbul olunan vətəndaş fəaliyyət zəncirinin bir halqasına çevrilir ki, bu da birbaşa dövlət siyasətinin təkmilləşməsinə xidmət edir.

Yeri gəlmişkən, ötən bir ay ərzində DİN-ə ünvanlanan müraciətlər də bu qurumun vətəndaşlara həssas yanaşmasının bariz nümunəsidir.

Qeyd edək ki, avqust ayının 1-dən 31-dək DİN-in sosial şəbəkələrdəki səhifələrinin mesaj bölməsinə 3556 müraciət daxil olub. Hər biri cavablandırılan müraciətlərdən 1045-i (312-si təşəkkür məktubu) qeydiyyata alınması və aidiyyəti üzrə yönləndirilməsi üçün DİN-in Katibliyinə təqdim edilib.

Onlardan 872-si cinayətkarlıqla mübarizə, 1163-ü qanunvericilik və digər məsələlərə dair, 425-i əməkdaşların fəaliyyətinin qanunauyğunluğu, 618-i Dövlət Yol Polisinin fəaliyyəti, 197-si ictimai təhlükəsizlik, 165-i vakansiyalar və xidmətə qəbul, 116-sı istintaq və təhqiqat qurumlarının fəaliyyəti ilə əlaqəli olub.

Nəticə etibarilə onu deyə bilərik ki, vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması artıq zamanın tələbinə çevrilib. Bu yanaşma olmasa cəmiyyətdə sosial-siyasi sabitlikdən, dövlət-vətəndaş birliyindən və ölkənin davamlı inkişafından söhbət gedə bilməz.

# Mənəvi hazırlıq əsas şərtdir

## Əməkdaşlar humanist dəyərlərə və qanunçuluğa sadiq olmalıdır

Gənc polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə Xətai,Sabunçu Rayon Mühafizə İdarələrində və Pirallahı, Sabunçu Polis İdarələrində görüşlər keçirilib.

Görüşlərdə DİN Şəxsi Heyətlə İş İdarəsinin rəis müavini polis polkovniki Anar Alışzadə, İdarənin şöbə rəisi polis polkovnik-leytenantı Firdovsi Nəsirov, baş inspektorlar polis polkovnikləri Laçın Paşayev və Rüstəm Nəsibov ölkəmizin dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasını, qələbəmizlə başa çatan Vətən müharibəsindən və antiterror tədbirlərindən sonra ərazi bütövlüyümüzün, həmçinin suverenliyimizin bərpasını və buna beynəlxalq dəstəyin ifadəsini diqqətə çatdırıblar.

Qeyd olunub ki, siyasi uğurlarımızın təməlində güclü iqtisadiyyat və etibarlı sabitlik durur. Ölkəmizdə sabitliyin bərqərar olunmasında daxili işlər orqanlarının fəaliyyətinin ölkə və DİN rəhbərliyi tərəfindən yüksək qiymətləndirilməsi məsuliyyət hissimizi artırır,- deyən natiqlər tədbirin mövzusuna uyğun olaraq xidmət zamanı vətəndaş-polis münasibətlərini daha da möhkəmləndirən etik-davranış kodeksinin müddəalarına əməl edilməsinin vacibliyini önə çəkiblər.

Hər bir əməkdaşın vətəndaşla davranışının qanunvericiliyə, etik normalara və xidmət intizamına uyğun olması vurğulanıb.

Nəzakət və hörmət, qanun çərçivəsində hərəkət, bərabərlik, köməklik göstərmək, sakitlik və peşəkarlıq kimi xidmətin təməl prinsipləri əsas götürülməsi diqqətə çatdırılıb.

Tədbirdə xüsusən polisin fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə mənfi rəyin formalaşmasının başlıca səbəbi olan korrupsiya və digər halların yolverilməzliyi, xidməti konfidensiallığı qorumanın rəhbərlik tərəfindən əsas tələb kimi diqqətdə saxlanıldığı əməkdaşlara izah edilib.

Sonra mövzu ilə bağlı iştirakçıların sualları cavablandırılıb, xidmət apararkən vətəndaş məmnunluğunu şərtləndirən təmkin, peşəkarlıq və yüksək iradə nümayiş etdirmələrinin ümumi işə, qanunçuluğa, sabitliyin daha etibarlı qorunmasına fayda verəcəyi vurğulanıb.

*"Polis"*

# Etibarlı qoruyur, etimadı doğruldurlar

## Mühafizə polisi daha bir oğurluğa cəhdin qarşısını aldı

Bu gün ölkəmizdə ictimai asayişin və vətəndaşların əmlak təhlükəsizliyinin qorunması prioritetlərdəndir. Görülən tədbirlərin nəticəsinin qənaətbəxş olması şübhəsiz ki, peşəkarlıqla və ayıq-sayıq xidmətlə birbaşa bağlıdır. Dövlət və şəxsi əmlakın qorunmasında mühafizə polisi əməkdaşlarının operativlik nümayiş etdirməsi isə həm ictimai təhlükəsizliyin təminində, həm də cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynayır.

Ona edilmiş əmanəti gecə-gündüz demədən qoruyan, cinayətkarlıqla qətiyyətli mübarizə aparan, ictimai asayişin keşiyində dayanan mühafizə polisinin fəaliyyəti ilə bağlı illər öncə qəzetimizə məktub göndərən vətəndaşın yaddaşımda özünə yer eləyən fikri bu qurumun peşəkarlığını tam mənası ilə özündə ehtiva edir: "Əgər iri şəhərlərdəki mənzil və obyekt sahibləri öz əmlaklarını mühafizə polisinin təmin etdiyi təhlükəsizlik çətirinin altına yığsaydı, oğurluqdan zərərçəkən yox deyəcək qədər azalardı".

Qeyd edək ki, son illərdə mühafizə polisinin texniki imkanlarının genişləndirilməsi və müasir təhlükəsizlik sistemlərinin tətbiqi nəticəsində analoji cinayətlərin qarşısının alınması xeyli sürətlənib və bu vətəndaş məmnunluğu ilə müşahidə olunur.




Yeri gəlmişkən, bu günlərdə Gəncə Regional Mühafizə İdarəsi tərəfindən mühafizə olunan obyektdən oğurluğa cəhdin qarşısı alınıb. Gəncə şəhəri Atatürk prospekti 134-də yerləşən,vətəndaş İsgəndərov S.Fərhad oğluna məxsus olan "Depo Golad Unvermaq" mağazasından saat 02:14 radələrində Mərkəzi Mühafizə Məntəqəsinə "həyəcan" siqnalı daxil olub. İdarə əməkdaşları dərhal operativ reaksiya göstəriblər. Belə ki, "tutucu qrup"un əməkdaşları ekipaj rəhbəri, polis baş serjantı Vüsal Kazımov, sürücü MMX üzrə mühafizəçi Elmar Məmmədov və manqa komandiri polis baş serjantı Cavid Cəfərov saat 02:17-də obyektə çatmış, obyektə baxış zamanı obyektin giriş qapısına müdaxilə olunduğunu aşkar etmişlər.

Obyektdən oğurluğa cəhd göstərən 16.03.2004-cü il təvəllüdlü Ağstafa rayon Poylu kəndində qeydiyyatda olan Novruz Bədirov, 02.01.1991-ci il təvəllüdlü Ağstafa rayon Poylu kəndində qeydiyyatda olan Malik Bədirov cinayət başında saxlanılaraq Gəncə şəhər 1-ci Polis Şöbəsinə təhvil verilmişdir. Faktla bağlı Gəncə şəhər 1-ci Polis Şöbəsində cinayət işi başlanılıb.

Xidmətin müasir tələblərə uyğun təşkilinin müsbət nəticəsi barədə danışan İdarə rəisi polis polkovniki Elçin Əsgərov bildirdi ki, görülən işlər həm vətəndaş məmnunluğu, həm də DİN rəhbərliyinin onlara olan inamı və etibarı ilə müşahidə olunur. Bu da şübhəsiz ki, fəaliyyətdə dönüş yaradır. Əməkdaşların hazırlıq səviyyəsi barədə danışan E.Əsgərov müvafiq məşğələlərin keçirildiyini, şübhəli şəxsin yaxalanması, obyektin mühafizəsi zamanı ortaya çıxan problemlərin həlli kimi məsələlərin simulyasiya edilməsi xüsusi vurğuladı. Qeyd olundu ki, peşə vərdişlərinin təkmilləşdirilməsi ilə yanaşı, əməkdaşların fiziki hazırlıq səviyyəsi də xüsusi diqqətdə saxlanılır.

*Hafiz Təmirov*
*polis polkovniki*

# Həssas mövzuya ictimai baxış

## İnsan alverinə qarşı maarifləndirici tədbir keçirilib

"XXI Əsrin Qadınları" İctimai Birliyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirdiyi "Qurbanların səsi" layihəsi çərçivəsində İsmayıllı rayonundakı Uşaq və Ailələrə Dəstək Mərkəzində insan alverinə qarşı genişmiqyaslı maarifləndirici tədbir təşkil edib.

Tədbirdə DİN İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin Xüsusilə mühüm işlər üzrə baş əməliyyat müvəkkili polis polkovnik-leytenantı Emin Əsədov, "XXI Əsrin Qadınları" İctimai Birliyinin sədri və sözügedən layihənin rəhbəri Mahirə Əmirhüseynova, İsmayıllı RİH-in əməkdaşı Gülər Baxışova, eləcə də rayon ictimaiyyətinin fəal nümayəndələri iştirak ediblər.



Qeyd olunub ki, tədbirin əsas məqsədi insan alveri ilə mübarizə sahəsində əhalinin maarifləndirilməsi, risk qruplarının vaxtında müəyyənləşdirilməsi və potensial qurbanlara hüquqi və psixoloji dəstək imkanlarının tanıdılmasıdır.

Çıxışlar zamanı iştirakçılara insan alverinin mövcud formaları, beynəlxalq və yerli qanunvericilik, profilaktik tədbirlər, hüquq-mühafizə orqanlarının funksiyaları və vətəndaşların rolu haqqında ətraflı məlumat verilib. Eyni zamanda, insan alveri qurbanlarının müdafiə mexanizmləri, onların reabilitasiya və reinteqrasiya prosesi ilə bağlı mövcud imkanlar diqqətə çatdırılıb. Diskussiya formatında davam edən tədbirdə iştirakçılar mövzu ilə bağlı suallarını səsləndirib, ekspertlər isə praktiki tövsiyələr veriblər.

# Fəaliyyətimizə vətəndaş münasibəti

## Məktublar ictimai rəyin bariz nümunəsidir

Vətəndaş Elçin Rzayev DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında üzləşdiyi dələduzluqla bağlı müraciətinə operativ baxılaraq obyektiv araşdırma aparılmasına görə Nərimanov Rayon Polis İdarəsinin Təhqiqat Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Sosial şəbəkə istifadəçisi Rüfət İsmayılov müraciətinə operativ baxılmasına və probleminin müsbət həllini tapmasında göstərilən köməkliyə görə Nizami Rayon Polis İdarəsinin 25-ci Polis Bölməsinin kollektivinə minnətdarlıq edir.

Sosial şəbəkə istifadəçisi Cəmalə Quliyeva müraciəti ilə bağlı ona göstərilən köməkliyə görə Naxçıvan MR DİN-nin Cinayət Axtarış İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Sosial şəbəkə istifadəçisi Tünzalə Məmmədzadə itkin düşən qızının tapılaraq ona təhvil verilməsinə görə Yasamal Rayon Polis İdarəsinin 28-ci Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Sosial şəbəkə istifadəçisi Raciv İsmayılzadə müraciətinə obyektiv baxılaraq pulunun geri qaytarılmasında ona göstərdikləri köməkliyə görə Nərimanov RPİ 16-cı Polis Şöbəsinin kollektivinə təşəkkürünü bildirir.

Sosial şəbəkə istifadəçisi Hicran Məmmədov qonşusu tərəfindən narahat edilməsi ilə bağlı müraciətinin qısa zaman kəsiyində müsbət həll olunaraq problemin aradan qaldırılmasında əməyi olan Pirallahı RPİ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Sosial şəbəkə istifadəçisi Rəvan Teymurov məktubunda üzləşdiyi problemlə bağlı müraciətinə operativ reaksiya verilməsinə və probleminin müsbət həll edilməsinə görə Nərimanov RPİ DYPŞ-nin əməkdaşlarına təşəkkürünü bildirir.

Mingəçevir şəhər sakini Sadiq Yusifov müraciətinin obyektiv araşdırılmasına görə Mingəçevir ŞPŞ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Oğuz rayon sakini Rəfiqə Əliyeva şəhid ailələrinə göstərdikləri diqqət və qayğıya görə Oğuz RPŞ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Nazilə Hüseynova DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, əmlakının ələ keçirilməsi ilə bağlı müraciətinə peşəkarlıqla yanaşıldığına, operativ tədbirlərlə məsələnin müsbət həll edildiyinə görə Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Vətəndaş Vasif Quliyev DİN-in "Instagram" səhifəsinə yazdığı təşəkkür mesajında müraciətinə həssaslıqla yanaşıldığına və ona göstərilən köməkliyə görə Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Tural Ömərli DİN-in "Instagram" səhifəsinə yazdığı təşəkkür mesajında itmiş sənədi ilə bağlı müraciətinə həssaslıqla yanaşıldığına və ona göstərilən köməkliyə görə Xətai Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

# Polis əməliyyat keçirdi

## Cinayətinə ailə üzvlərini də şərik edib

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Lənkəran rayonunda keçirilən növbəti əməliyyat zamanı 1978-ci il təvəllüdlü, Lerik rayon sakini Nazim Fərəcov tutulub. Ondan tərkibinə zərərli maddələr əlavə edilmiş 62 kiloqram marixuana və tiryək aşkarlanıb.

Qeyd edək ki, N.Fərəcov şübhə oyatmamaq üçün narkotik vasitələri çatdırdığı ünvanlara ailə üzvləri ilə birlikdə gedib.

Aparılan araşdırmalar zamanı onun ayrı-ayrı vaxtlarda şəxsiyyətləri araşdırılan İran vətəndaşları ilə əlbir olub ölkə ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil etdiyi sübuta yetirilib.

Faktla bağlı cinayət işi başlanılıb. Saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Hava limanında oğurluq

## Barələrində araşdırma aparılır

Naxçıvan Hava Nəqliyyatında Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qabaqcadan əlbir olaraq oğurluq edən şəxslər - 28 yaşlı Hüseyn Həmzəyev və tanışı 20 yaşlı Səid Kərimli saxlanılıblar. Onlar hava limanında sərnişinlərə məxsus çamadanlardan 10 min manat məbləğində müxtəlif növ əşyaları talamaqda şübhəli bilinirlər.

Faktla bağlı cinayət işi başlanılıb.

# Fermerlərə vurulan ziyan

## Polis oğruları "iş başında" yaxalayıb

Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində kənd təsərrüfatında istifadə edilən qurğuların elektrik kabelini oğurlayaraq külli miqdarda ziyan vuran şəxslər tutulublar.

Avqustun 20-dən 24-dək olan müddətdə rayonun Salmanbəyli kəndi ərazisində yerləşən şirkətlərdən birinə məxsus pivot suvarma qurğusunun 47 min manat dəyərində kabellərinin oğurlanması barəsində polisə məlumat daxil olub. Əməliyyat tədbirləri ilə oğurluğu törətməkdə şübhəli bilinən 1995-ci il təvəllüdlü Cavanşir Əzizov və 1988-ci il təvəllüdlü Dilqəm Hüseynov saxlanılıblar.

Araşdırmalar zamanı C.Əzizovun Ağcabədi rayonunun Avşar kəndi ərazisində yerləşən başqa bir suvarma qurğusundan 600 metr uzunluğunda kabel oğurlaması da müəyyən edilib. Onların bu hərəkətləri nəticəsində sahələrin suvarılması dayanıb, təsərrüfat subyektlərinə və fermerlərə ciddi maddi ziyan dəyib.

Faktla bağlı cinayət işi başlanılıb, adıçəkilənlər barəsində həbs qətimkan tədbiri seçilib.

# Kiberdələduzluq edirdi

## Bank kartlarından oğurluq etdiyi sübuta yetirilib

Hacıqabulda polis əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri nəticəsində sosial şəbəkələrdə kiberdələduzluq edən əvvəllər məhkum olunmuş Aslan Qurbanov saxlanılıb. O, müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərə yardım adı altında sosial şəbəkələrdə paylaşılan bank kartlarındakı maddi vəsaitləri talamaqda şübhəli bilinir. Araşdırma zamanı adıçəkilən şəxsin 20 nəfərin etibarından sui-istifadə edərək bank kartlarının məxfi məlumatlarını əldə etdiyi məlum olub. Bu üsulla A.Qurbanov 10 min manatdan artıq pul ələ keçirib.

Faktla bağlı cinayət işi açılıb, saxlanılan şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# Dağlarda xüsusi əməliyyat

## Silahlı şəxslər tutuldu

Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin kultivasiyası ilə məşğul olan və qanunsuz odlu silah-sursat saxlayan şəxslərə qarşı xüsusi əməliyyat keçirilib. Şəki regional qrupumuzdan verilən məlumata görə, həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində çətin relyefli yüksək dağlıq və meşəlik ərazidə narkotik plantasiyası aşkar olunub. Çətənə kollarını əkən, əvvəllər də dəfələrlə məhkum edilmiş 62 yaşlı Seyfəddin Həmzətov və 47 yaşlı Zumrat Saxrayev müəyyən olunaraq saxlanılıblar. Əraziyə baxış keçirilərkən çəkisi 72 kiloqram olan 179 ədəd narkotik tərkibli bitki, eləcə də ov tüfəngi, soyuq silahlar və digər maddi sübutlar aşkarlanıb. Saxlanılanlar çətənə kollarını qazanc əldə etmək məqsədilə əkdiklərini və qulluq göstərdiklərini bildiriblər.

Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbiri seçilib.

# Cinayət səhnələrinin miniatür kraliçası

## O, kriminalistikanın inkişafına böyük töhfə verib

Kriminalistika elminin inkişafında misilsiz xidmətləri olan Franses Qlesner Li tibb və hüquq sahəsində peşəkar təhsil ala bilməsə də, inadkarlığı və zəkası sayəsində bu sahənin əfsanəsinə çevrildi. “İzah olunmamış ölümlərin qozqabığı tədqiqatları” ilə tanınan Li kriminalistikada inqilabi yanaşmalar təqdim etdi və bu gün də onun yaratdığı üsullardan hüquq-mühafizə orqanlarında geniş istifadə olunur.



### Maneələrdən məqsədə doğru

Franses Qlesner Li 1878-ci ildə Çikaqoda varlı bir ailədə doğulmuşdu. Atası Con Qlesner onun və qardaşının təhsilinə ciddi önəm versə də, dövrün stereotipləri səbəbindən Franses ali təhsil ala bilmədi. Həkim olmaq arzusu 19 yaşında hüquqşünas Blewett Harrissonla evləndikdən və üç övlad sahibi olduqdan sonra əlçatmaz qaldı. Lakin o, 1930-cu illərdə boşandı...

### Özünü sübut etməyi hədəfləmişdi

Franses özünü hüquqi tibb və kriminalistika sahəsində inkişaf etdirməkdə qərarlı idi. Qardaşının dostu, Harvard universitetinin tanınmış patoloqu Corc Burqess Maqratla dostluğu onun həyatında dönüş nöqtəsinə çevrildi. Bu dostluq onu hüquq-tibbi ekspertiza ilə daha dərindən maraqlanmağa sövq etdi.

O, 1936-cı ildə Harvard Hüquqi Tibb Məktəbinə 250 min dollar bağışladı və “Corc Burqess Maqrat Hüquqi Tibb Fondu”nun yaradılmasına dəstək oldu. Bu fondun məqsədi tələbələrin hüquqi tibb sahəsində biliklərini artırmaq idi. Li, həmçinin Harvard Universitetinə nadir hüquq-tibb kitabları kolleksiyası da bağışladı. Kolleksiyaya 15-ci əsrə aid olan Petrus de Abanonun “De Venenis” adlı zəhərlər kitabı və ABŞ prezidenti Ceyms Qarfildin() qatili Çarlz Gito ilə bağlı nadir sənədlər daxil idi.

### Miniatür səhnələrlə böyük inqilab

1940-cı illərdə Franses Qlesner Li öz sənətkarlıq bacarığını kriminalistika ilə birləşdirərək inqilabi layihəyə imza atdı: “İzah olunmamış ölümlərin qozqabığı tədqiqatları”. Bu layihə çərçivəsində o, real cinayət hadisələrinə əsaslanan miniatür dioramalar hazırladı. Hər biri xüsusi dəqiqliklə hazırlanmış bu səhnələrdə meyitin rəng dəyişməsi, qan izləri, pəncərə kilidləri və digər detallar kriminal ipuclarını əks etdirirdi.

O dövr üçün unikal sayılan bu maketlər polis əməkdaşlarının müşahidə qabiliyyətini inkişaf etdirmək və təhlil bacarıqlarını artırmaq üçün istifadə edilirdi. Bu metodik yanaşma kriminalistika sahəsində təlimin yeni mərhələyə keçidinə səbəb oldu.

### Təsiri və irsi. Qadın adı ilə yazılan kriminal tarix

Franses Qlesner Li bu sahədə ilk dəfə olaraq qadınların da təlimçi və ekspert kimi rol almasının yolunu açdı. O, ABŞ-da ilk qadın polis kapitanı adına layiq görüldü və hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlıq etdi. Onun hazırladığı maketlər bu gün də Baltimor şəhərindəki Tibbi Ekspertiza Bürosunda keçirilən təlimlərdə istifadə olunur.

Linin topladığı hüquqi tibb kitabxanası isə Harvardın “Countway” kitabxanasında qorunaraq bu sahədə çalışan tədqiqatçılar üçün əvəzolunmaz resurs kimi xidmət göstərir. O, təkcə kriminalistika təhsilinə yox, həm də bu sahədə qadınların tanınmasına böyük töhfə verdi.

“Kriminalistikanın anası” kimi tanınan Franses Qlesner Linin fəaliyyətləri müasir dövrdə istifadə edilən bir çox texnikanın təməlini qoydu. Onun təlim üçün hazırladığı maketlər, kriminalistika təhsilində diqqətin detallara yönəlməsinin vacibliyini sübut etdi.

Linin həyat yolu, qadınların qarşısına çıxan maneələrə rəğmən elmi sahələrdə necə inqilab edə biləcəyinin canlı sübutudur. Onun miniatür dünyası kriminal araşdırmaların reallığını kiçik ölçülərdə göstərsə də, təsiri və irsi çox böyük oldu.

*Aytən Tahirova*
*polis kapitanı*

# Güclülər və çeviklər qalib gəlib

## Xidmətdə olduğu kimi idmanda da uğur qazandılar

İyun ayından start götürən respublika üzrə xidməti çoxnövçülük yarışlarının finalı Bakıda Şağan



İdman Olimpiya Kompleksində keçirilib. Turnikdə dartınma, 1000 metr məsafəyə qaçışla yanaşı, üzgüçülüyün də daxil olduğu finalda bölgələrdə keçirilən yarışların qalibləri, paytaxtın polis orqanlarının və Mərkəzi Aparatın nümayəndələri birincilik uğrunda mübarizə aparıblar.

Yarışla bağlı DİN İdman Cəmiyyətindən “Polis”ə bildirilib ki, ötən müddət ərzində bölgələrdə və paytaxtda 8 minə yaxın əməkdaş xidməti çoxnövçülük üzrə gücünü sınayıb. Birinci mərhələdə fərqlənən 7410 əməkdaşdan ikinci mərhələyə 344 nəfər vəsiqə əldə edib və yarışlara qatılıb. Onlardan ən hazırlıqlı olan və təqdim olunan hərəkətlərdə birincilik əldə edən 60 nəfər əməkdaş isə respublika birinciliyinin final mərhələsinə buraxılıb. Yarışların keçirilməsində məqsəd əməkdaşların idman bacarıqlarının, fiziki hazırlığının və fiziki dözümlüyünün yoxlanılmasıdır.

Respublika birinciliyinin nəticələrinə görə Əlahiddə Çevik Pois Alayının komandası birinci, DİN Daxili Qoşunlar ikinci, Bakı şəhər Baş Polis İdarəsinin komandası isə 3-cü yerdə qərarlaşıb.

Qeyd edək ki, şəxsi birincilikdə hər üç hərəkət üzrə uğur qazanan əməkdaşlar da diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

# Süni intellekt, yoxsa peşəkarlar?

## Müasir texnologiyalar təhlükəsizliyə töhfə verir

Müasir dövrün məhsulu olan süni intellekt cinayətlərin qarşısının alınmasında və işin səmərəliliyinin artırılmasında hüquq-mühafizə orqanlarının əsas köməkçisinə çevrilib.

### Potensial risklər müəyyən edilir

Bu texnologiya yalnız baş vermiş cinayətləri araşdırmaqla kifayətlənmir, həm də törədiləcək cinayətlərin qarşısını almaq üçün qabaqlayıcı tədbir görmək imkanı yaradır. Süni intellekt məlumatların sürətli analizini aparır, potensial riskləri əvvəlcədən müəyyən edir və patrul fəaliyyətini daha məqsədyönlü istiqamətə yönləndirir.

Bu ilin avqust ayında Böyük Britaniya hökuməti “AI Crime Prevention Challenge” (Süni İntellektlə Cinayətlərin Qarşısının Alınması Çağırışı) layihəsinə start verib. Layihə çərçivəsində 2030-cu ilə qədər İngiltərə və Uelsdə real vaxt rejimində işləyən interaktiv cinayət xəritəsi yaradılacaq. Bu xəritə bıçaqla törədilən cinayətlərin başvermə ehtimalını proqnozlaşdıra, anti-sosial davranışların erkən əlamətlərini müəyyən edə və vaxtında müdaxilə imkanı verə biləcək.

Xəritə polis, bələdiyyə və sosial xidmətlərdən gələn məlumatları – cinayət tarixçələrini, hadisə yerləri və davranış modellərini birləşdirərək analiz edir, cinayətlərin törədildiyi əraziləri müəyyənləşdirir və resursların daha məqsədyönlü istifadəsini təmin edir. Layihə UKRI (UK Research and Innovation – Böyük Britaniyanın Tədqiqat və İnnovasiya Orqanı) tərəfindən həyata keçirilən “Concentrations of Crime Data Challenge” (Ci-



nayətlərin Cəmləşmə Məlumatları Çağırışı) çərçivəsində aparılır. Layihənin ilkin mərhələsində dövlət 4 milyon funt sterlinq ayıraraq prototiplərin hazırlanmasını planlaşdırır.

### Beynəlxalq təcrübə

İlkin prototiplər 2026-cı ilin aprel ayına qədər hazırlanacaq və sistem 2030-cu ilə qədər tam istifadəyə veriləcək. Bu təşəbbüs həmçinin “Safer Streets Mission” (Daha Təhlükəsiz Küçələr Missiyası) proqramının bir hissəsi kimi ictimai təhlükəsizliyin artırılmasına xidmət edir və on il ərzində qadınlara qarşı zorakılığı və bıçaqlanma cinayətlərini azaltmaq məqsədini güdür.

Oxşar texnologiyalar ABŞ və Niderland kimi ölkələrdə də tətbiq olunur. Los-Anceles və Çikaqoda patrulların marşrutları süni intellekt alqoritmləri ilə planlaşdırılır və Niderlandda tətbiq edilən “CAS – Crime Anticipation System” (Cinayətin Ön Görülməsi Sistemi) cinayətlərin əvvəlcədən müəyyən edilməsində əlavə imkanlar təqdim edir. Bu sistemlər patrulların məqsədyönlü fəaliyyətini dəstəkləyir, resursların səmərəli istifadəsinə imkan verir və ictimai təhlükəsizliyin gücləndirilməsinə kömək edir.

Süni intellekt texnologiyaları hüquq-mühafizə işini sürətləndirir və qabaqlayıcı tədbirlərin effektivliyini artırır. Məsələn, interaktiv cinayət xəritələri, üz tanıma sistemləri və avtomatlaşdırılmış hesabat yazılışı məlumatların daha sürətli və dəqiq analizinə imkan yaradır. Bununla belə, sistemin səhvsiz işləməsi üçün məlumatların tam və keyfiyyətli olması vacibdir. Alqoritmlər yalnız daxil olunan məlumatlar əsasında fəaliyyət göstərdiyi üçün səhvlərə yol verilməsi istisna edilmir. Bundan əlavə, mürəkkəb hesablama modellərinin işləmə prinsipi bəzən “qara qutu” kimi qalır, yəni nəticələrin necə əldə edildiyi tam aydın olmur. Bu səbəbdən nəticələrin düzgün qiymətləndirilməsi üçün əlavə yoxlamalar və təhlillər tətbiq olunmalıdır.

Beynəlxalq hüquqi çərçivələr süni intellektin məsuliyyətli və təhlükəsiz istifadəsini təmin edir. Avropa İttifaqının “AI Act” (Süni İntellekt Qanunu) proqnozlaşdırıcı texnologiyaların standartlarını müəyyən edir, ABŞ-da isə dövlət orqanlarında Sİ sistemlərinin şəffaf və məsuliyyətli istifadəsi üçün qanunvericilik mövcuddur.

Beləliklə, süni intellekt hüquq-mühafizə sahəsində cinayətlərin qarşısını almaqda, resursları daha məqsədyönlü istifadə etməkdə və ictimai təhlükəsizliyi qorumaqda ən yaxın köməkçimizə çevrilir. Bu isə obyektiv qiymətləndirmə ilə nəticələrin etibarlılığını təmin etməklə bərabər, texnologiyanın həyatımızdakı yerinin önəmini yenidən gözlər önünə sərmiş olur.

*Səfa Əfəndizadə*
*polis sıravisi*

# Sükan arxasındakı risk

## Polis çağırış etdi: “Qayda pozuntusu faciə ilə nəticələnir”...

Son günlər baş verən yol-nəqliyyat hadisələrinin təhlili göstərir ki, sükan arxasında məsuliyyətsiz davranış və yol hərəkəti qaydalarının pozulması təkcə sürücünün deyil, onunla birgə hərəkətdə olan ailə üzvlərinin, uşaqların və



yaxınlarının həyatına ciddi təhlükə yaradır. Təəssüf ki, yollarda törədilən qayda pozuntuları çox zaman geri dönüşü mümkün olmayan faciələrlə yekunlaşır.

Xüsusilə vurğulamaq lazımdır ki, qəzaların ən ağır və acı tərəfi qaydaları pozan sürücülərin deyil, çox vaxt onların günahsız sərnişinlərinin – körpə uşaqların, valideynlərin və yaxınların həyatlarını itirməsidir. Bu isə yol hərəkətində hər bir kəsin məsuliyyətinin nə qədər böyük olduğunu bir daha göstərir.

Baş Dövlət Yol Polisi İdarəsi bütün hərəkət iştirakçılarına müraciət edərək bir daha xatırladır:

-sürət həddini aşmaq, qəfil və düşünülməmiş manevrlər yol-nəqliyyat hadisələrinin əsas səbəblərindəndir;

-yolayrıclarında diqqətli olmaq, digər nəqliyyat vasitələri və piyadalarla qarşılıqlı ehtiyatlı davranmaq təhlükəsizliyin təmin edilməsinin başlıca şərtidir;

-təhlükəsizlik kəmərindən istifadə etməmək isə qəza zamanı insan həyatını birbaşa təhlükə altında qoyur.

Unutmayın, qaydalar Sizi və sevdiklərinizi qorumaq üçündür.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik